# Ölkə iqtisadiyyatı və yeniliklər

## Sənayenin inkişafında yeni mərhələ

Ölkənin sosial-iqtisadi inkişafı siyasətinin prioritet istiqaməti iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabət qabiliyyətliliyinin artırılması və bu sahəyə investisiya qoyulmasının sürətləndirilməsidir. Nəticədə son illərdə ÜDM-nin artımı qeyri-neft sektorunun hesabına davam edir. Eyni zamanda rəqabətə davamlı məhsul da artır. Məsələn, 2012-ci ildə qeyri-neft sektorunda ÜDM-i 9,7 faiz, 2013-cü ilin birinci rübündə 11,4 faiz artmışdır.

2012-ci ildə 60-dan çox sənaye müəssisəsi istifadəyə verilmiş, 100-dən artıq sənaye müəssisəsinin inşası davam etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 aprel 2013-cü il tarixli fərmanı ilə təsdiq edilmiş «Sənaye-parkları haqqında Nümunəvi Əsasnamə» adlı çox mühüm sənəd imzalanmışdır. Bu sənədin icrası ilə ölkədə sənaye inkişafının daha mütərəqqi, daha yeni bir mərhələsi başlanacaqdır. Hazırda bu istiqamətdə tədbirlər həyata keçirilir. Artıq Sumqayıt Kimya sənayesi və Balaxanı Sənaye və Yüksək Texnologiya parklarının yaradılması ilə əlaqədar iş aparılır.

## BTC ilə Azərbaycan neftinin nəqli

Cari ilin aprel ayı ərzində BTC əsas ixrac boru kəməri vasitəsilə 2 milyon 427 min 650 ton Azərbaycan nefti nəql olunmuşdur. Bundan başqa həmin ayda BTC kəməri ilə 269 min 628 ton Türkmənistan nefti də nəql olunub.

Cari ilin Yanvar-aprel aylarında isə kəmərlə 9 milyon 771 min 412 ton Azərbaycan nefti ötürülüb.

Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2013-cüi ilin may ayının 1-dək BTC-yə 215 milyon 223 min 226 ton neft vurulub. Dünya bazarına isə 213 milyon 335 min 62 ton Azərbaycan nefti yola salınıb.

## İpək yolu Azərbaycan Nəqliyyat dəhlizində daşımalar

Bu ilin birinci rübündə «İpək yolu» nəqliyyat dəhlizinin Azrbaycan ərazisində 14,7 milyon ton və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz çox yük, 69,4 milyon nəfər və ya 7,2 faiz çox sərnişin daşınıb.

Daşınma yüklərinin 44,9 faizi avtomobil, 35,9 faizi dəmir yolu, 19,2 faizi dəniz nəqliyyatının payına düşüb. Müvafiq surətdə artım 6,5—7,2—0,9 faiz olmuşdur.

Yük daşımalarından 115,4 milyon manat (artım 7,25 faiz), sərnişin daşımalarından isə 23,2 milyon manat (artım 14,7 faiz) gəlir əldə edilmişdir.

## Azərbaycanlı sahibkarlar beynəlxalq tədbirə dəvət alıblar

İstambulda Türkiyə iş adamları və sənayeçilər Konfederasiyasının (TUSKON) təşkilatçılığı ilə iyunun 16-23-də «Türkiyə-Dünya Ticarət Körpüsü-2013» biznes forumu keçiriləcək. Tədbirdə Afrika, Asiya, Orta Şərq, Şimali və Latın Amerikasından mebel sahəsində fəaliyyət göstərən 1000-ə yaxın idxalçı şirkətin iştirakı nəzərdə tutulur. Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və işguzar dairələr də biznes foruma dəvət alıblar.

## Əsas kapitala yönəldildən sərmayənin çoxu daxili sərmayədir

Dövlət Statistika Komitəsindən verilmiş məlumata görə ilin 4 ayı ərzində ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən 4 milyard 252,7 milyon manat vəsait yönəldilib. Vəsaitin 2 milyard 586,5 milyon manatı dövlət mülkiyyətli müəssisə və təşkilatlarının, 1 milyard 666,2 milyon manatı qeyri-dövlət müəssisələrinin hesabınadır.

Bu, o deməkdir ki, cari ilin 4 ayı ərzində daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,3 faiz artmış və ümumi sərmayənin 72,2 faizini təşkil etmişdir.

## Əhalinin gəlirləri artıb

Cari ilin yanvar-aprel aylarında ölkə əhalisi 10,3 milyard manatlıq və ya əvvəlki ilin 4 ayı ilə müqayisədə 6,3 faiz çox gəlir əldə edib.

Gəlirin orta hesabla hər nəfərə düşən həcmi 4,9 faiz artaraq 1 milyon 108,7 manat olub. Bütün icbari ödəmələr və könüllü üzvlük haqları ödənildikdən sonra əhalinin sərəncamında 9,3 milyard manatlıq vəsait qalıb. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çoxdur.

**Topladı N. ATAKİŞİYEV.**

# Mədəniyyət mərkəzində dəyirmi masa

Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin direktoru, fəlsəfə doktoru Ramazan Şabanovun rəhbərliyi altında bir qrup müəllim heyəti Qəbələ rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçiləri ilə dəyirmi masa keçirmişdir. Tədbiri giriş sözü ilə Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova açdı. Sonra söz qonaqlara verildi. «Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı»ndan irəli gələn vəzifələr və «Dövlət qulluqçularının etik davranış qaydaları haqqında» qanunla bağlı R. Şabanov, «Mədəniyyət Mərkəzlərinin fəaliyyət istiqamətləri və qeyri-maddi mədəni irsin qorunması təcrübəsi haqqında» Qafqaz Universitetinin Mədəniyyət şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zəminə Axundova, «Ana dili mili dövətçiliyin başlıça rəmzi kimi: Dövlət Proqramından irəli gələn vəzifələr, Dövət qulluqçularının etik davranış məsələlərinin həllində nitq mədəniyyətinin rolu» mövzusunda Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin direktorunun müavini, fəlsəfə doktoru Nəzakət Rəhmanova, «Cəmiyyətin inkişafında İKT-nin rolu. Korrupsiyaya qarşı mübarizəyə dair məsələlərin həllində, eləcə də innovasiya və şəffaflığın artırılmasında elektron xidmətlərdən istifadə mexanizmləri, sənədlərin elektron dövriyyəsi və İKT-nin mədəniyyət məsələləri barədə» informasiya kommunikasiya və elmi təminat şöbəsinin müdiri Ruhiyyə Namazova çıxış etmişlər.

Çıxışlardan sonra keçirilən müzakirələrdə dəyirmi masa iştirakçılarının suallarι cavablandırılmış və müzakirələrə dair təkliflər söylənilmişdir.

**Şöhrət SÜLEYMANOV.**

# Yeniyetmə güləşçimizin uğuru

Sərbəst güləş Qəbələ rayonunda ən populyar və qədim idman növü kimi inkişaf etməkdədir. İdmanın



bu növü ilə məşğul olan rayon güləşçiləri dəfələrlə Respublika yarışlarında və çempionatlarda, eləcə də beynəlxalq turnirlərdə fəxri kürsünün yüksək pilləsində yer tutmuşlar. Belə güləşçilərdən biri də Cabbarov Elvin Kamran oğludur.

Elvin Cabbarov 1995-ci ildə Qəbələ şəhərində anadan olmuş, şəhər 1 saylı tam orta məktəbdə təhsil alarkən erkən yaşdan sərbəst güləşlə məşğul olmağa başlamışdır. İlk məşqçisi atası Kamran Cabbarovdan güləşin sirlərini öyrənən Elvin 6-cı sinifdən təhsilini Respublika Olimpiya İdman Litseyində davam etdirməyə başlamışdır.

Elvin Cabbarovun idman həyatındakı nailiyyətləri respublika birinciliklərində yüksək nəticələr əldə etməklə başlamış və dəfələrlə yaşıdları arasında Bakı çempionu adını qazanmışdır. Daha sonra o Gürcüstanda, Dağıstanda, Ukraynada keçirilən beynəlxalq turnirlərdə II-III yerləri tutaraq rayonumuzu şərəflə təmsil etmişdir. Bu yaxınlarda Bakı şəhərində sərbəst və yunan-roma güləşi üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində Elvin Cabbarov bürünc medala layiq görülmüşdür.

Yeniyetmə güləşçimizi təbrik edir, bundan sonrakı idman həyatında ona uğurlar arzulayırıq.

**Elçin OSMANOV, Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

# «Narkomaniyaya yox deyək»

Vəndam qəsəbəsində «Narkomaniyaya yox deyək» adlı tədbir keçirilmişdir.

Tədbirdə qəsəbənin ziyalıları, ağsaqqılları, din xadimləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, 156 nəfər məktəbin yuxarı sinif şagirdləri iştirak etmişdir. «Narkomaniyaya yox deyək», «Erkən nigahlar və boşanmalar», «Narkomaniyanın insan orqanizminə zərərləri» mövzularında keçirilən tədbiri giriş sözü ilə Vəndam qəsəbə inzibati ərazi nümayəndəsinin müavini Azad Xitilov açmış və qonaqları salamlamışdır. Sonra «Narkomaniyaya yox deyək» mövzusunda çıxış etmək üçün sözü Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru R. Mahmudovaya vermişdir.

«Erkən nigahlar və boşanmalar» mövzusunda rayon qeydiyyat idarəsinin rəisi Zinyət Bağırova, «Narkomaniyanın insan orqanizminə təsiri» mövzusunda rayon mərkəzi xəstəxanasının narkoloq həkimi Sahib Məsimov, «Narkomaniya ilə bağlı rayon məktəblərində keçirilən tədbirlər» barədə rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova cıxış etmişdir. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini, ictimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova qeyd olunan məsələlərlə bağlı rəy və təkliflərini söyləmişdir.

Tədbirdə qəsəbənin imamı Fərzalı Alıyev, qəsəbə ağsaqqallar qrupunun sədri Ağasəddin Nəzirov, qəsəbə 1 saylı tam orta məktəbin direktoru Qətibə Abbasova çıxış edərək müzakirə edilən məsələlərlə bağlı fikirlərini söyləmiş və baş verən nöqsanlara qarşı mübarizəni gücləndirmək lüzumundan danışmışlar.

Tədbirdə müzakirə olunan məsələlərlə bağlı içtimaiyyəti maraqlandıran suallar cavablandırılmışdır.

**«QƏBƏLƏ».**